1_Layout 1 10.06.2026 18:37 Page 1

*Daxili Qoşunların üzərinə çox böyük vəzifələr düşür və bunlar uğurla yerinə yetirilir.*

**İlham ƏLİYEV**

DİN DAXİLİ QOŞUNLAR

# ƏSGƏR

№ 11 (723)

16 iyun 2026-cı il

Qəzet 1992-ci il dekabrın 16-dan nəşr olunur.

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının HƏRBİ VƏTƏNPƏRVƏRLİK qəzeti

## 15 İYUN – MİLLİ QURTULUŞ GÜNÜ: AZƏRBAYCANIN DÖVLƏTÇİLİK TARİXİNİN ŞANLI SƏHİFƏSİ



Azərbaycan xalqının taleyində böyük əhəmiyyəti olan günlərdən biri və ən önəmlisi tariximizə qızıl hərflərlə yazılmış 15 iyun - Milli Qurtuluş Günüdür. Həmin tarixi gündən bizi 33 illik zaman ayırır. Milli Qurtuluş Günü Azərbaycan xalqı üçün sadəcə təqvim bayramı deyil, böyük ictimai, siyasi və tarixi əhəmiyyətə malik bir gündür. İyunun 15-i xalqımız üçün əsl qurtuluş tarixidir. Bu tarixi yaradan isə Azərbaycanın müstəqilliyinin qorunub saxlanılmasında, möhkəmlənməsində, inkişafında müstəsna rol oynayan, daim xalqına arxalanan Ümummilli Lider Heydər Əliyevdir. 1993-cü il iyunun 15-də Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə Azərbaycan dərin ictimai-siyasi və iqtisadi böhrandan xilas oldu, respublikanın inkişafının sarsılmaz təməlləri qoyuldu.

Xalqımız artıq altı ildir ki, bu günü qalib xalq kimi daha yüksək əhval-ruhiyyə, milli qürur hissi, Qələbə ovqatı ilə qeyd edir. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qurucusu Ümummilli Lider Heydər Əliyev olan şanlı Azərbaycan Ordusu Vətən müharibəsində parlaq Qələbə qazanaraq işğal altındakı torpaqlarımızı azad etdi, ölkəmizin ərazi bütövlüyü təmin olundu. Qırx dörd günlük Vətən müharibəsində qazandığımız möhtəşəm Zəfər və uğurlu antiterror tədbirləri öz başlanğıcını məhz Milli Qurtuluş Günündən götürür. Ulu Öndərin ən böyük arzusu Azərbaycanı bütöv görmək idi. Ümummilli Lider Heydər Əliyevin məcburi köçkünlərlə görüşlərinin birində böyük inamla və özünə xas uzaqgörənliklə söylədiyi bu sözlər yada düşür: "Arzu edirəm ki, sizinlə birlikdə gedək Şuşaya. Gedəcəyik, inanın ki, gedəcəyik. Şuşa Azərbaycanın gözüdür, hər bir azərbaycanlı üçün iftixar mənbəyidir. Şuşa bizim mədəniyyətimizin, tariximizin rəmzidir. Şuşa hamı üçün əzizdir. Amma təkcə Şuşa yox, Laçın dağları da əzizdir. Biz heç vaxt Laçınsız yaşaya bilmərik. Ağdam kimi gözəl bir şəhər, Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı, Kəlbəcərin o bulaqları, Kəlbəcərin o İstisuyu - biz onlarsız yaşaya bilmərik".

Ulu Öndər Heydər Əliyevin arzuları illər sonra reallaşdı, Prezident İlham Əliyev ata vəsiyyətini yerinə yetirdi. Bu gün Şuşada, Laçında, Ağdamda, Füzulidə, Cəbrayılda, Zəngilanda, Qubadlıda, Kəlbəcərdə, Ağdərədə, Xocavənddə, Əsgəranda, Xocalıda və nəhayət Xankəndidə üçrəngli bayrağımız əzəmətlə dalğalanır.

Heydər Əliyevin 1993-cü il iyunun 15-də Azərbaycanda hakimiyyətə qayıdışı dövlətçilik tariximizin şanlı qürur səhifəsini təşkil edir. Bu tarixi gün, eyni zamanda Azərbaycanın tənəzzüldən xilas olaraq tərəqqi yoluna çıxması, dünya miqyasında müstəqil siyasət həyata keçirən dövlət kimi tanınması, beynəlxalq aləmdə layiqli yerini tutması ilə səciyyələnir. Xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdan Ümummilli Lider Heydər Əliyevin adı tarixə müstəqilliyimizin xilaskarı, qarantı kimi yazılıb. Azərbaycanın müstəqilliyinin bərpasının ilk illərində baş verənlərə nəzər salmaqla Ulu Öndərin böyüklüyünü və dahiliyini əyani surətdə görə bilərik.

XX əsrin sonlarında yenidən müstəqillik qazanmaq kimi tarixi fürsəti əldə edən Azərbaycan qısa vaxtdan sonra onun itirilməsi təhlükəsi ilə üzləşdi. Ölkədə hakimiyyət böhranı 1993-cü ilin iyununda kulminasiya həddinə çatdı, xaos və anarxiya respublikanı bürüdü. Vətəndaş müharibəsi dərəcəsinə yüksəlmiş qarşıdurma nəinki dövlət müstəqilliyimizi, hətta milli varlığımızı belə birbaşa hədəfə aldı. Beləliklə,1991-1993-cü illər ölkəmizin müasir tarixində hərc-mərclik, özbaşınalıq, avantürist eksperimentlər dövrü kimi xatırlanır. Bütün bunlar isə həmin dövrdə yeni yaradılmış müstəqil dövlətə liderlik xüsusiyyətlərinə malik olmayan, siyasi hadisələrə qiymət vermək, gələcəyi görmək imkanlarından məhrum olan, adi vəziyyətdən belə çıxış yolu tapmağa qadir olmayan şəxslərin rəhbərlik etməsinə görə baş verirdi. Hadisələri düzgün qiymətləndirə bilməyən o vaxtkı iqtidar əhali arasında gündən-günə nüfuzunu itirir, baş vermiş proseslərdən düzgün nəticə çıxara bilmirdi.

Azərbaycan torpaqlarının Ermənistan silahlı qüvvələri tərəfindən davam edən işğalı, getdikcə gərginləşən iqtisadi-siyasi, sosial vəziyyət ölkəni bu bəlalardan xilas edə biləcək, xalqı öz arxasınca aparmağa qadir liderə ehtiyac olduğunu şərtləndirirdi. Cəmiyyətdə belə bir ümumi fikir yaranmışdı ki, ölkəni düşdüyü bu ağır vəziyyətdən çıxarmağa qadir olan yeganə şəxsiyyət Heydər Əliyevdir. Xalqımız öz dahi oğlunu təkidlə hakimiyyətə dəvət edirdi. 1993-cü il iyunun 9-da Ulu Öndər Heydər Əliyev xalqın çağırışına səs verərək Naxçıvandan Bakıya gəldi və bir neçə gündən sonra hakimiyyətin sükanı arxasına keçdi. Bu, sözün həqiqi mənasında, ölkəmizin taleyində dönüş anı oldu.

Ümummilli Lider Heydər Əliyev Azərbaycanı real təhlükələrdən xilas etməklə yanaşı, gələcək inkişaf strategiyasını müəyyənləşdirdi və bu istiqamətdə ilk mühüm addımlar atdı. Ulu Öndərin gərgin fəaliyyəti, səyləri nəticəsində ictimai-siyasi sabitlik bərqərar olundu, böyük təhlükə mənbəyi olan qeyri-qanuni silahlı dəstələr zərərsizləşdirildi, sosial-iqtisadi dirçəlişə yol açan islahatlar başlandı. Gələcəyə, konkret nəticələrə hesablanmış bu siyasət nəticəsində, həmçinin Ermənistan silahlı qüvvələrinin torpaqlarımıza davam edən təcavüzünün qarşısını almaq mümkün oldu.

Ulu Öndər müstəqilliyimizin həmin mərhələsini belə xarakterizə edirdi: "Azərbaycan böyük təhlükə qarşısında idi. Çünki Azərbaycanın müstəqil yaşamasının əleyhinə olan həm daxildəki qüvvələr güclü idi, həm də Azərbaycan kimi böyük coğrafi-strateji əhəmiyyətə, zəngin təbii sərvətlərə malik olan ölkənin tam müstəqil olması başqa ölkələrdə bəzi dairələri qane etmirdi. Ermənistanın Azərbaycana etdiyi təcavüz və bunun nəticəsində Azərbaycanın zəifləməsi, məğlubiyyətə uğraması, ikinci tərəfdən də daxildə hakimiyyət çəkişməsi 1992-ci ilin iyun ayında hakimiyyətə gəlmiş qüvvələri bir ildən sonra hakimiyyətdən saldı, xalq özü saldı".

İyunun 15-də Azərbaycan Ali Sovetinin sədri seçilən Heydər Əliyev deyirdi: "Mənim həyatım da, fəaliyyətim də yalnız və yalnız Azərbaycanın müstəqilliyinin qorunub saxlanılmasına, ölkəmizin bu ağır vəziyyətdən çıxmasına həsr olunacaqdır". Ümummilli Lider problemlərin həlli üçün, ilk növbədə, bütün səylərini ölkədə vətəndaş həmrəyliyinin, sabitliyin təmin olunmasına yönəltdi və buna nail oldu, gələcək inkişaf üçün möhkəm təməllər yaratdı. Bu istiqamətdə atılan ilk mühüm addım 1994-cü ilin sentyabrında "Əsrin müqaviləsi"nin imzalanması oldu. Sonrakı dövrdə Ulu Öndərin təşəbbüsü və rəhbərliyi ilə Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum neft və qaz kəmərlərinin çəkilişinə başlanıldı. Prezident İlham Əliyevin hakimiyyəti dövründə bu transmilli layihələrə Asiyanı Avropa ilə birləşdirən Bakı-Tbilisi-Qars dəmir yolu, Azərbaycan qazını Avropaya çatdıran Cənub Qaz Dəhlizi əlavə edildi.

1995-ci ilin noyabrında demokratik, hüquqi dövlətin təməlini təşkil edən yeni Konstitusiya qəbul olundu. Eyni zamanda, zəruri islahatlar aparılması üçün normativ-hüquqi bazanın formalaşdırılmasına start verildi. Təfərrüata varmadan demək olar ki, Qurtuluş Günü Azərbaycanın xaosdan, anarxiyadan, hərc-mərclikdən, özbaşınalıqdan, parçalanma təhlükəsindən qurtularaq sabitliyə, əmin-amanlığa, inkişafa qovuşmasının əsasının qoyulduğu, ölkəmizin taleyinin dəyişdiyi gündür.

Azərbaycanın müstəqil və qüdrətli dövlət kimi inamlı inkişafını, tarixin ən çətin sınaqlarından uğurla çıxmasını təmin edən Ulu Öndər Heydər Əliyev, sözün əsl mənasında, xilaskar, qurucu lider rolunu oynadı. Ötən dövrə nəzər saldıqda aydın görürük ki, müstəqil Azərbaycan Ümummilli Lider Heydər Əliyevin şah əsəridir. Bu əsərin təməl daşının qoyulduğu gün - 15 iyun tariximizin ən parlaq səhifələrindən biridir.

Türkiyə və Azərbaycan arasında qardaşlıq münasibətlərini strateji müttəfiqlik səviyyəsinə yüksəldən "Şuşa Bəyannaməsi"nin məhz Milli Qurtuluş Günündə imzalanması heç də təsadüfi deyil. Bu hadisə Azərbaycan xalqının Vətən müharibəsindən sonra yaranmış böyük ruh yüksəkliyini daha da alovlandırdı, dostlar üçün böyük sevinc, düşmən üçün isə gözdağı oldu.

Qədirbilən xalqımız Ulu Öndər Heydər Əliyevin misilsiz xidmətlərini daim minnətdarlıq hissi ilə xatırlayır. Ümummilli Liderin xalqımız və dövlətçiliyimiz qarşısında ən mühüm xidmətlərindən biri sonrakı dövrdə də Azərbaycanın tərəqqi yolunda əmin addımlarla irəliləməsini təmin edəcək layiqli varis yetişdirməsidir. Ulu Öndərin ideyalarını uğurla həyata keçirən Prezident İlham Əliyevin müdrik siyasəti nəticəsində ölkəmiz dinamik inkişaf edir, dünya siyasi arenasında layiqli yer tutur, milli maraqlarımız bütün səviyyələrdə qətiyyətlə qorunur. Azərbaycan qüdrətli, öz prinsipial mövqeyi olan, müstəqil siyasət yeridən ölkə kimi tanınır.

Son illər Azərbaycan Heydər Əliyev ideyalarının işığında böyük inkişaf yolu keçib, ölkəmizin ərazi bütövlüyü bərpa edilib. Bugünkü Azərbaycan Ulu Öndərin görmək istədiyi azad, müstəqil, ərazi bütövlüyü təmin olunmuş qüdrətli ölkədir.

Qarabağ Zəfəri bölgədə yeni reallıqlar yaradıb. Dünyanın bir çox dövləti və güc mərkəzi bu reallıqları qəbul edir, onunla hesablaşır. Azərbaycan postmüharibə dövrünün gündəliyini diktə edir. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Qarabağda, Şərqi Zəngəzurda möhtəşəm quruculuq işləri həyata keçirilir. Xalqımız əmindir ki, Cənubi Qafqaz regionunun lider dövləti olan Azərbaycan bundan sonra da böyük uğurlar qazanacaq, öz qüdrətini daha da artıracaq.

Göründüyü kimi, Heydər Əliyevin ideyaları Azərbaycanı zirvədən-zirvəyə, qələbədən-qələbəyə aparmaqdadır. Bu gün xalqımız inanır ki, müstəqil Azərbaycan Heydər Əliyev ideyaları işığında Prezident İlham Əliyevin rəhbərliyi ilə daha yüksək zirvələr fəth edəcək.

**AZƏRTAC-ın materialları əsasında hazırlanıb.**

## Nazir Vilayət Eyvazov Qazaxda vətəndaş qəbulu, Ağstafada sıra baxışı keçirib



Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırığına və bölgələr üzrə vətəndaş qəbulu cədvəlinə uyğun olaraq daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov iyunun 3-də və 4-də Qazax rayonunda növbəti vətəndaş qəbulu keçirib.

Nazir əvvəlcə Qazax rayonunda Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət edərək əziz xatirəsini dərin hörmət və ehtiramla yad edib.

Daha sonra polis şöbəsinin inzibati binasında Qazax, Ağstafa, Tovuz, Şəmkir və Gədəbəy rayonlarından, eləcə də digər bölgələrdən qəbula gələn 211 vətəndaşın müxtəlif məsələlərlə bağlı müraciətləri dinlənilib.

Qəbula gələn vətəndaşların müraciətlərinin operativ və qanunvericiliyin tələblərinə uyğun həlli, habelə vətəndaş məmnunluğunun təmin olunması məqsədilə nazirliyin aidiyyəti baş idarə və idarə rəislərinə müvafiq tapşırıqlar verilib.

Müraciətlərin böyük əksəriyyəti yerindəcə həll olunub, digərləri nəzarətə götürülüb.

Səfər çərçivəsində general-polkovnik Vilayət Eyvazov Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının Ağstafa rayonunda yerləşən hərbi hissəsində polis və Daxili Qoşunlarda xidmət etmək arzusunda olan gənclərin sıra baxışını da keçirib.

Sıra baxışında xidmətə qəbulun şərtlərinə uyğun gələn 238 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb.

**DİN-in Mətbuat xidməti**





2_Layout 1 12.06.2026 10:28 Page 1



# DAXİLİ QOŞUNLARIN VETERANLARI DİQQƏT MƏRKƏZİNDƏDİR

İyunun 3-də daxili qoşunlar komandanının müavini – maddi-texniki təminat idarəsinin rəisi polkovnik Tamirlan Fərmanov Daxili Qoşunların veteranı, istefada olan polkovnik Rahim İsgəndərovu 70 illik yubileyi münasibətilə təbrik edib. Yubilyarı və Daxili Qoşunların Veteranlar şurasının üzvləri olan Fəxrəddin Səmədov, Məhəmməd Hacıyev və Səfixan Bayramovu Daxili Qoşunların 67987 saylı hərbi hissəsində qəbul edən polkovnik T.Fərmanov veteranın şərəfli hərbi xidmət yolu keçdiyini, qoşunların inkişafında təqdirəlayiq əməyinin olduğunu vurğulayıb.



Qeyd olunub ki, R.İsgəndərov üzərinə düşən xidməti vəzifələrin yerinə yetirilməsində əzmkarlıq göstərib. O, təyin olunduğu vəzifələrdə komandanlıq tərəfindən göstərilən etimadı layiqli xidmətilə doğruldub. Təcrübəli və səriştəli hərbi qulluqçu olaraq şəxsi heyətə nümunə olub.

Daxili qoşunlar komandanının müavini - maddi-texniki təminat idarəsinin rəisi R.İsgəndərovun hərbi xidmət müddətində bir çox mükafatlara layiq görüldüyünü xatırladaraq, bunun veterana daxili işlər nazirinin və daxili qoşunların komandanlığının diqqət və qayğısının təzahürü olduğunu nəzərə çatdırıb.

Polkovnik T.Fərmanov veteranların qoşunların şəxsi heyətilə təmasının qorunub saxlanılmasının vacibliyini, onların təcrübəsindən təlim-tərbiyə prosesində məqsədyönlü istifadə olunmasının zəruriliyini, veteran həmrəyliyinin möhkəmləndirilməsinin əhəmiyyətini xüsusi qeyd edib.

O, R.İsgəndərovu 70 illik yubileyi münasibətilə təbrik edərək, dövlətçiliyimizə sədaqətinə, Daxili Qoşunların veteranı adını uca tutmasına görə minnətdarlığını bildirib, hörmətli veterana möhkəm cansağlığı, ailə səadəti və işlərində uğurlar arzulayıb.

Görüşdə xatirə şəkli çəkdirilib.

**Mətbuat xidməti**

# HƏRBİ İNSTİTUTDA "CƏMİYYƏTİN İNKİŞAFINDA AZƏRBAYCAN GƏNCLİYİNİN ROLU VƏ MƏSULİYYƏTİ" MÖVZUSUNDA ELMİ-PRAKTİKİ KONFRANS KEÇİRİLİB

Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının Hərbi İnstitutunda Kursant Elmi Cəmiyyətinin təşkilatçılığı ilə "Cəmiyyətin inkişafında Azərbaycan gəncliyinin rolu və məsuliyyəti" mövzusunda elmi-praktiki konfrans keçirilib.



Konfransda Daxili Qoşunların Hərbi İnstitutu ilə yanaşı, Daxili İşlər Nazirliyinin Polis Akademiyası, Müdafiə Nazirliyinin Heydər Əliyev adına Hərbi İnstitutu, Dövlət Təhlükəsizliyi Xidmətinin Heydər Əliyev adına Akademiyası, Dövlət Sərhəd Xidmətinin Akademiyası, Fövqəladə Hallar Nazirliyinin Akademiyası, Dövlət Gömrük Komitəsinin Akademiyası, Milli Aviasiya Akademiyası, Azərbaycan Dövlət Dəniz Akademiyası və Azərbaycan Respublikası Baş Prokurorluğunun Elm-Tədris Mərkəzinin nümayəndələri iştirak ediblər.



Tədbir iştirakçılarının qarşılanmasından sonra qonaqlar Ümummilli Lider Heydər Əliyevin büstünü və şəhidlər abidəsini ziyarət edərək ehtiramlarını bildiriblər.

Konfrans Hərbi İnstitutun rəhbərliyi tərəfindən açıq elan edilib. Açılış nitqində cəmiyyətin inkişafında, dövlətçilik ənənələrinin qorunmasında, vətəndaş məsuliyyətinin formalaşdırılmasında və intellektual potensialın gücləndirilməsində gənclərin mühüm rol oynadıqları qeyd olunub. Bildirilib ki, müasir dövrdə gənclər yalnız bilik və bacarıqları ilə deyil, həm də sosial məsuliyyətləri, təşəbbüskarlıqları, vətənpərvərlikləri və ictimai fəallıqları ilə cəmiyyətin inkişafına töhfə verməlidirlər.

Konfransda gənclərə həsr olunmuş videoçarx nümayiş etdirilib, sonra müxtəlif ali təhsil müəssisələrini təmsil edən kursant və tələbələrin məruzələri dinlənilib. Məruzələrdə müasir Azərbaycanın inkişafında gəncliyin strateji rolu, hüquq mədəniyyətinin formalaşmasında gənclərin iştirakı, qlobal transformasiyalar fonunda Azərbaycan gəncliyinin qarşısında duran vəzifələr, dövlətçilik düşüncəsinin möhkəmləndirilməsi, müstəqillik dövründə gənclər siyasətinin inkişaf mərhələləri, müasir çağırışlar və inkişaf imkanları kimi məsələlər təhlil edilib.

Məruzələrdə vurğulanıb ki, Azərbaycan gəncliyi bu gün dövlətin inkişaf strategiyasının fəal iştirakçısı, milli-mənəvi dəyərlərin daşıyıcısı və gələcək idarəçilik potensialının əsas mənbələrindən biridir. Gənclərin elmə, təhsilə, innovativ düşüncəyə, ictimai təşəbbüslərə və vətənpərvərlik ruhunda formalaşmasına diqqət artırıldıqca cəmiyyətin inkişaf imkanları da genişlənir.



Konfransda Hərbi İnstitutun kursantları ilə yanaşı, digər ali təhsil müəssisələrinin kursant və tələbələrinin fəal iştirakı fikir mübadiləsi üçün səmərəli mühit yaradıb. Təqdim olunan məruzələr mövzunun müxtəlif aspektlərdən araşdırıldığını, gənclərin yalnız nəzəri biliklərə deyil, həm də analitik düşüncə və ictimai məsuliyyət hissinə malik olduqlarını nümayiş etdirib.

Konfrans çərçivəsində Ulu Öndər Heydər Əliyevin anadan olmasının 103-cü ildönümünə həsr edilmiş respublika səviyyəli yazı müsabiqəsinin qalibləri də mükafatlandırılıblar.

Tədbirin yekununda Hərbi İnstitutun rəhbərliyi tərəfindən konfransın əhəmiyyəti yüksək qiymətləndirilib, iştirakçıların təqdim etdikləri məruzələrin mövzu baxımından aktual və məzmunlu olduğu bildirilib. Sonda konfrans iştirakçılarına sertifikatlar təqdim olunub.

Keçirilən konfrans gənclərin elmi mühitdə fəallıqlarının artırılması, müxtəlif ali təhsil müəssisələri arasında əməkdaşlığın genişləndirilməsi və vətənpərvər, məsuliyyətli, bilikli gənc nəslin formalaşdırılması baxımından əhəmiyyətli olub. Tədbir, eyni zamanda Daxili Qoşunların Hərbi İnstitutunda kursantların elmi təşəbbüskarlığının dəstəkləndiyini, onların analitik düşüncə, ictimai məsuliyyət və təqdimat bacarıqlarının inkişafına diqqət yetirildiyini göstərib. Bu baxımdan konfrans Hərbi İnstitutun yalnız hərbi-peşə hazırlığı deyil, həm də intellektual və vətəndaş mövqeyi formalaşdıran təhsil mühiti kimi rolunu bir daha nümayiş etdirib.

**polkovnik Vüqar Şirinov**
**Hərbi-elmi şöbənin rəisi**

# ŞƏXSİ HEYƏT DÖYÜŞ ATIŞLI TAKTİKİ TƏLİMƏ CƏLB OLUNUB

2026-cı ildə Daxili Qoşunlarda əsas tədbirlərin, döyüş təliminin planlaşdırılması və təşkilinə dair təqvim planının tələblərinə uyğun olaraq, daxili işlər nazirinin müavini - daxili qoşunların komandanının müvafiq əmrinə əsasən mayın 19-dan 22-dək Azərbaycan Ordusunun "Goran" Təlim mərkəzində Daxili Qoşunların 16077, 16073 və 17074 saylı hərbi hissələrinin minaatan batareyalarının şəxsi heyətinin iştirakı ilə döyüş atışlı taktiki təlim keçirilib.

Təlimlər zamanı öyrədilənlərə atəş mövqeyinin tutulması, tərk edilməsi, atəş açana qədər heyətlərin işi, atışa xidmət tapşırıqlarının icrası, praktiki döyüş atışlarının keçirilməsi qaydaları, atəş mövqeyinin və komanda müşahidə məntəqəsinin yerdəyişməsi, yeni atəş mövqeyindən atışların aparılması, həmçinin komandir heyəti ilə ərazinin vizual kəşfi, qiymətləndirilməsi, döyüş əmrinin hazırlanması, artilleriya xətkeşləri və ərazinin xəritəsindən istifadə edərək, eləcə də analitik üsulla hədəfləri müəyyən etməklə atışların icrası, artilleriya atışı və atəşin idarə olunması, atışa xidmət tapşırıqlarının icrası üzrə biliklər aşılanıb, praktiki fəaliyyətlər məşq etdirilib.





Həmçinin, "Artilleriya hazırlığı və atış kursu"nun tələblərinə uyğun olaraq, təlimə cəlb olunan hərbi qulluqçularla minaatan batareyaların minaatanlarından müxtəlif atəş tapşırıqları yerinə yetirilib. 16077 və 17074 saylı hərbi hissələrin minaatan batareyalarının atışlarının nəticələri xüsusilə fərqlənib.

Sonda minaatan bölmələrin hazırlığının yoxlanılmasının, keçirilən təlimin nəticələri, eləcə də hərbi qulluqçuların öyrədilməsi, onların praktiki fəaliyyətlərinin nəticələri ilə əlaqədar yekun keçirilib, peşəkarlığın artırılması üçün müvafiq tapşırıq və tövsiyələr verilib.

Demək olar ki, keçirilən təlimlər zamanı qarşıya qoyulan tapşırıqlar uğurla yerinə yetirilib, təlimin sonunda minaatan batareyaların şəxsi heyətinin siyahıya uyğun olması, xəsarətalma hallarına, eləcə də silahların, kəşfiyyat və hesablama cihazlarının itkisinə yol verilməməsi yoxlanılıb, şəxsi heyətin təlimatlandırılaraq batareyaların daimi yerləşdiyi yerlərə göndərilməsi təmin olunub.

Təlimdə təşkilatçılığa, şəxsi heyətin öyrədilməsində, fərdi hazırlığının yüksəldilməsində, maddi-texniki təminat tədbirlərinin tam və keyfiyyətlə icrasında üzərilərinə düşən vəzifələrin yerinə yetirilməsinə məsuliyyətlə yanaşdıqlarına görə bir sıra hərbi qulluqçular mükafatlandırılıblar.

**kapitan Xədicə Hacızadə**

# KOMENDANT BÖLÜYÜ XİDMƏTİLƏ HƏR ZAMAN ÖNDƏDİR

17074 saylı hərbi hissənin döyüş hazırlığını yüksək səviyyədə qoruyub saxlayan, həvalə olunan tapşırıqları uğurla yerinə yetirən bölmələrindən biri komendant bölüyüdür. Bölük komandiri kapitan Elnur Quliyev bildirdi ki, hərbi hissənin döyüş bayrağının, avtomobil və zirehli texnikalar saxlanılan parkının, anbarlarının mühafizə və müdafiəsi komendant bölüyünün şəxsi heyəti tərəfindən təmin olunur. Bölük döyüş xidmətinin yerinə yetirilməsində yüksək peşəkarlıq nümayiş etdirir.




Hərbi hissənin mühafizə və müdafiəsini təşkil edən qarovulun üzərinə böyük məsuliyyət düşür. Bu baxımdan xidmətə cəlb olunan hərbi qulluqçularda bir sıra vacib xüsusiyyətlərə diqqət yetirilir. Şəxsi heyətin sağlamlığını, mənəvi-psixoloji durumunu əsas şərt kimi dəyərləndirən zabit digər lazımi keyfiyyətlərin keçirilən nəzəri məşğələlər və praktiki təlimlər zamanı aşılandığını söylədi, onların bilik və bacarıqlarının artırılmasına təkan verdiyini nəzərimizə çatdırdı.



Döyüş xidmətindən əvvəl müvafiq plana əsasən, bölük komandiri və onun tərbiyə işləri üzrə müavini tərəfindən hərbi qulluqçularla təlimat keçirilir, müvafiq nizamnamənin maddələri çatdırılır: "Ümumiyyətlə, xidmətə cəlb edilənədək hərbi qulluqçularla fərdi qaydada söhbətlər aparılır, onların mənəvi-psixoloji vəziyyətləri öyrənilir, sağlamlıqları tibb xidmətinin həkimləri tərəfindən yoxlanılır və ciddi nəzarətdə saxlanılır. Qarovulun xidmətinə nəzarət edərkən postlarda saatdarların vaxtlı-vaxtında dəyişilməsi ilə yanaşı, silahın doldurulub-boşaldılması zamanı təhlükəsizlik qaydalarına ciddi riayət olunması, eləcə də asudə vaxtın səmərəli təşkili - müxtəlif növ ədəbiyyatların, dövri mətbuatın mütaliəsi, stolüstü oyunların oynanılması da diqqət mərkəzində saxlanılır".




Bölük komandiri qeyd etdi ki, keçirilən təlim və məşğələlərdə kifayət qədər fiziki güc, eləcə də bilik əldə edən şəxsi heyət postda xidmət apararkən daha ayıq-sayıq, çevik olur, tapşırılmış obyektin mühafizəsini qüsursuz yerinə yetirir.

Komendant bölüyündə xidmətin təşkili, hərbi qulluqçuların xidmətə hazırlanması və qarovulun yoxlanılmasında bölük komandirinin müavini baş leytenant Habil Azadovun yaxından iştirak etdiyini deyən kapitan Elnur Quliyev onun bacarıqlı və çalışqan zabit olduğunu bildirdi.

Bölük komandiri nümunəvi xidmətilə şəxsi heyətə örnək olan hərbi qulluqçulardan gizir Asim Hudulov, baş çavuş Elçin Əhmədov, baş əsgər Tehran Allahverdiyev və əsgər Nurlan Allahverdiyevin adlarını qeyd etdi.

**kapitan Nigar Ağayeva**

3_Layout 1 12.06.2026 10:27 Page 1



# DƏSTƏNİN ŞƏXSİ HEYƏTİ YÜKSƏK PEŞƏKARLIQ NÜMAYİŞ ETDİRƏRƏK GÖSTƏRİLƏN ETİMADI DOĞRULDUR

Silahlı cinayətkarların axtarılması, tutulması, zərərsizləşdirilməsi istiqamətində fəaliyyət göstərən



xüsusi təyinatlıların həyata keçirdikləri xidməti-döyüş fəaliyyəti təqdirəlayiqdir.

16073 saylı hərbi hissənin komandiri polkovnik Ramil İsmayılov xüsusi təyinatlı dəstənin xidməti-döyüş fəaliyyəti barədə danışarkən bildirdi ki, dəstə hər an qarşıya qoyulan tapşırıqları keyfiyyətlə yerinə yetirməyə hazırdır. Belə ki, müxtəlif təlimlərdə iştirak edən dəstənin



şəxsi heyəti hər zaman yüksək peşəkarlıq nümayiş etdirərək göstərilən etimadı doğruldur.

Polkovnik R.İsmayılov onu da vurğuladı ki, xüsusi təyinatlı dəstənin təlimləri əsasən çətin iqlim və fərqli relyef şəraitində təşkil olunub keçirilir. Ekstremal vəziyyətlərdə dayanıqlılığın, mərdliyin və şücaətin nümayiş etdirilməsi, vaxtında və düzgün qərarların verilməsi xüsusilə diqqətdə saxlanılır.

Xüsusi təyinatlı dəstənin komandiri mayor Cavid Tağıyev şəxsi heyətlə təlim-məşqlərin hava şəraitindən asılı olmayaraq, davamlı xarakter daşıdığını dedi. Əlavə etdi ki, döyüş təlimi daxili işlər nazirinin müavini-daxili qoşunların komandanının müvafiq direktivinin tələblərinə əsasən təşkil edilir. Atəş və fiziki hazırlıqla yanaşı, xüsusi-taktiki hazırlıq, hərbi topoqrafiya, həmlədesant hazırlığı, tək əsgərin döyüş təlimi, hərbi-tibbi hazırlıq, hərbi mühəndis hazırlığı və mütəxəssislərlə ixtisas hazırlığı üzrə məşğələlərin təşkili daim təkmilləşdirilir. Bu zaman əsas diqqət dəstənin üzərinə düşən vəzifələrin və yerinə yetirilən tapşırıqların əhəmiyyətinin dərk edilməsinə yönəlir: "Məşğələlər şəxsi heyətin təhkim olunmuş silaha mükəmməl yiyələnməsi, əlbəyaxa döyüş fəndlərinin öyrənilməsi, müxtəlif şəraitlərdə xidməti-döyüş tapşırıqlarının yerinə yetirilməsi zamanı döyüş və digər texnikanın tətbiq edilməsi, nizam-intizamın möhkəmləndirilməsi və sayıqlığın artırılmasına, həmçinin fiziki və psixoloji gərginliyə tab gətirilməsinə istiqamətlənir".



Mayor C.Tağıyevin sözlərinə görə, məşğələlər zamanı hər bir hərbi qulluqçunun fərdi hazırlığının artırılmasına önəm verilir. Şəxsi heyətin real şəraitə uyğun operativ şəkildə qərar qəbul etmək bacarığı qiymətləndirilir.

Bundan əlavə, hərbi qulluqçuların təlim-tərbiyəsi və mənəvi-psixoloji hazırlıqlarına da diqqət yetirilir. Fiziki hazırlıq məşğələlərinin keçirilməsində yarımqrup komandirləri xüsusi fəallıq nümayiş etdirirlər.



Əlavə olaraq, cinayətkar dəstələrin zərərsizləşdirilməsi üzrə xüsusi metod və vasitələr öyrədilir, praktiki fəaliyyətə üstünlük verilir.

Dəstə komandiri keçirilən praktiki məşğələlərin şəxsi heyətin peşə vərdişlərinin təkmilləşdirilməsində çox əhəmiyyətli rol oynadığını, bu zaman təhlükəsizlik qaydalarına ciddi riayət olunduğunu da diqqətə çatdırdı. Vurğuladı ki, hər bir xüsusi təyinatlı öz hərbi peşəsini, vəzifə borcunu dərindən öyrənməli, təhkim olunmuş silaha mükəmməl yiyələnməli, əlbəyaxa döyüş fəndlərinin öyrənilməsi, müxtəlif şəraitlərdə xidməti-döyüş tapşırıqlarının yerinə yetirilməsi zamanı döyüş və digər texnikanı bacarıqla tətbiq etməlidir.

Zabit, həmçinin xüsusi təyinatlılarla aparılan tərbiyə işi tədbirləri barədə məlumat verdi. Söylədi ki, şəxsi heyətlə keçirilən tədbirlərin əsasını hərbi intizamın möhkəmləndirilməsi, hərbi-vətənpərvərlik ruhunun aşılanması və kollektivdə yoldaşlıq münasibətlərinin inkişaf etdirilməsi təşkil edir. Bu işdə dəstə komandirinin tərbiyə işləri üzrə müavini mayor Rəşad Abdullayevin əməyi danılmazdır.

Sonda mayor C.Tağıyev bundan sonra da peşəkarlığını artırmaq üçün şəxsi heyətin yorulmadan öz üzərində çalışacağını dedi. O, nümunəvi hərbi qulluqçulardan baş çavuş Sinan Bayramov, çavuşlar Orxan Ələsgərov, Müseyib Babayev və əsgər Elvin Hüseynovun adlarını qeyd etdi.

**kapitan Xədicə Hacızadə**

*Şəhidlərimiz*

# VƏTƏN TORPAĞINA VURUŞARAQ QOVUŞAN, MƏZARI OLMAYAN DÖYÜŞÇÜ

Azərbaycan dövləti və xalqı Birinci Qarabağ müharibəsi zamanı ölüm-qalım sınağından keçib, torpaqlarının bir hissəsinin işğalı ilə üzləşib, soyqırım, barbarlıq və məcburi köçkünlük faciələrindən sarsılıb. Xarici havadarlarının dəstəyinə arxalanan Ermənistan beynəlxalq hüquq normalarını pozaraq, təcavüzkar siyasət yürüdərək ölkəmizə qarşı ağlasığmaz vəhşiliklər törədib.

Belə bir çətin dövrdə respublikamızı bürüyən hərtərəfli daxili böhran, hakimiyyət uğrunda qarşıdurma, xəyanətkar ünsürlərin baş qaldırması, müxtəlif təxribatlar, orduda pərakəndəlik suverenliyimizin və ərazi bütövlüyümüzün müdafiəsinə ağır zərbələr vurub.

Ümummilli Lider Heydər Əliyevin xalqımızın təkidli çağırışı ilə hakimiyyətə qayıdı-



şı nəticəsində Azərbaycanın dövlətçiliyi xilas olunub, hərc-mərcliyə son qoyulub, vətəndaş həmrəyliyi formalaşdırılıb, orduda vahid komandanlıq bərqərar edilib, ölkə ərazisinin Ermənistan tərəfindən hərbi istilasının genişləndirilməsinin qarşısı alınıb, atəşkəs sazişi imzalanıb, bütün sahələrdə quruculuq və inkişaf mərhələsi başlayıb.

1992-ci ilin mart ayının 12-dən etibarən Daxili İşlər Nazirliyinin Daxili Qoşunları Ağdam rayonu ərazisində ilk dəfə olaraq erməni işğalçılarına qarşı döyüşüb. 1994-cü ilin may ayında atəşkəs elan olunanadək şəxsi heyət ön cəbhənin ayrı-ayrı istiqamətlərində düşmənə qarşı mətinliklə vuruşub. Birinci Qarabağ müharibəsi zamanı Daxili Qoşunların 682 nəfər hərbi qulluqçusu Vətən naminə şəhidlik zirvəsinə ucalıb. Onların siyahısında əsgər Verdiyev Qürbət Teymur oğlunun da adı var.

Qürbət 1972-ci il sentyabrın 15-də Göygöl rayonunun Pənahlılar kəndində çoxuşaqlı ailədə anadan olub. Teymur Verdiyev və Bahar Verdiyevanın sonbeşiyi idi. T.Verdiyev İkinci Dünya müharibəsində iştirak edib və doğma yurduna sağ qayıdıb. Teymur kişi 1986-cı ildə dünyasını dəyişib. Həmin müharibədə şəhidin iki dayısı isə itkin düşüb. Bahar xanım sovet dövründə "Qəhrəman ana" fəxri adına və müvafiq ordeninə layiq görülüb. 2013-cü ilin noyabr ayının 15-dək yaşayıb, son nəfəsinədək gözləri yollardan yığılmayıb, ürəyi oğul həsrəti ilə döyünüb. Həyatın hər üzünü görmüş bu valideynlər ləyaqətli, xeyirxah və zəhmətkeş övladlar böyüdərək tərbiyə ediblər.

Pənahlılar kəndindəki orta məktəbin (hazırda Məsim Cəfərov adına tam orta məktəb) məzunu olan Qürbət hələ şagird ikən gələcəkdə asayiş keşikçisi olmağı arzulayıb, həmçinin özünü hərbi xidmətə hazırlayıb. Fiziki cəhətdən güclü olmağa xüsusi diqqət yetirib və idmana həvəslə yanaşıb.

14 yaşında olarkən atasını itirən Qürbət ömrünün qalan hissəsində bu kədəri ürəyində daşıyıb. Həmişə veteran atasından qürurla danışıb, onun öyüd-nəsihətlərini unutmayıb.

1992-ci ilin aprel ayında Qürbət DİN-in Daxili Qoşunlarının sıralarına müddətli həqiqi hərbi xidmətə çağırılıb. 5456 (indiki 99713) saylı hərbi hissədə xidmətə qəbul olunaraq bir müddət sonra 5477 (indiki 17072) saylı hərbi hissəyə göndərilib. Hərbi hissədə patrul bölüyündə xidmət edərək nizam-intizamı, təlimlərdə çalışqanlığı ilə fərqlənib. Əsgər kimi hərbi xidmət borcunu vicdanla yerinə yetirib. Komandirləri və yoldaşlarının hörmətini qazanıb.

Həmin vaxt ön cəbhədə vəziyyət getdikcə daha da ağırlaşıb. Qarabağ, Şərqi Zəngəzur və digər bölgələrdə şiddətli döyüşlər gedib. Daxili Qoşunların hərbi hissələrindən davamlı şəkildə müharibə zonasına şəxsi heyət yola salınıb. 5477 (17072) saylı hərbi hissənin hərbi qulluqçuları Tərtər, Ağdərə və Kəlbəcər rayonlarının ərazilərində yaşayış məntəqələrinin müdafiəsinə cəlb olunublar.

1992-ci ilin iyun-iyul aylarında hərbi hissənin şəxsi heyətinin tərkibində Qürbət Kəlbəcər və Ağdərə rayonları istiqamətlərində döyüş yolu keçib. Hərbi qulluqçularımız Kəlbəcər rayonunun Narınclar kəndi ətrafındakı müdafiə mövqeyində qətiyyətlə dayanıblar. Bizim postlar ermənilər tərəfindən müntəzəm şəkildə atəşə tutulub. Ağdərə rayonunun ermənilərin Aterk adlandırdıqları Həsənriz kəndi işğaldan azad olunub. İyul ayının 19-dək bu kənd nəzarətimizdə qalıb. Göstərilən müddətdə hərbçilərimiz orada növbə ilə müdafiəni təşkil ediblər. Qeyd edilən gün şəxsi heyətin bir hissəsi Kəlbəcər rayonunun Zəylik kəndinin ətrafında mövqe tutmaq tapşırığı alıb. Oraya hərəkət edərkən postların yerini dəqiqləşdirmək üçün Ağdərə rayonunun Umudlu kəndindəki ordu taboruna gediblər. Bu kəndə çatdıqdan bir neçə dəqiqə sonra ermənilər tərəfindən artilleriya atəşinə məruz qalıblar. Düşmən Həsənriz və Umudlu kəndləri istiqamətlərində hücuma keçib. Kəndlərdəki hərbçilərimiz arasında əlaqə kəsilib.

Daxili Qoşunların sabiq hərbi qulluqçusu, müharibə veteranı, ehtiyatda olan baş gizir Emin Quliyev o dövrdə əsgər olub, 5477 (17072) saylı hərbi hissədən Kəlbəcər və Ağdərə rayonlarına göndərilib. Ön cəbhədə Qürbətin silahdaşlarından biri kimi bildiklərini mənə danışdı. O, döyüşdə Qürbəti sonuncu dəfə gördüyü anları belə xatırladı: "1992-ci il iyulun 19-da erməni işğalçıları hücuma keçdikdə Umudlu kəndi ərazisində Qürbətlə birlikdə döyüşmüşük. Vəziyyət ağır idi, düşmən əlverişli mövqelərə yiyələnərək müxtəlif çaplı silahlardan bizə atəş açırdı. Həsənrizdə olan hərbi qulluqçularımızdan məlumatsızdıq, onların bir çoxunun mühasirəyə düşdüyünü sonradan bildik. Şiddətli atəş altında əsgər yoldaşımız Cümşüd Əsgərov ayağından yaralandı. Mən sanitar-təlimatçı olduğum üçün dərhal onun yanına gələrək ilk tibbi yardım göstərdim. Əsgərlər Şamil Abdullayev və Rəsul Süleymanova dedim ki, Cümşüdü gizir Çərkəz Həsənovun yanına aparsınlar. Yaralını iki nəfərin xərəksiz daşıması çətin olduğundan digər əsgərlərdən Qürbət Verdiyev və Asif Hacıyev onlara kömək etdilər. Döyüş bir qədər səngidikdə onları axtardım, ancaq Umudluda rastlaşmadıq. Düşündüm ki, yəqin gizir Ç.Həsənovla birlikdə Cümşüdü Həsənrizdəki tibb məntəqəsinə aparıblar.

Umudlu kəndində gedən döyüş zamanı kömək olmadan və az qüvvə ilə oranın müdafiəsini saxlamaq mümkün deyildi. Bununla yanaşı, döyüşçülər arasında pərakəndəlik və əlaqəsizlik yaranmışdı, ətrafımız ermənilər tərəfindən sarılmadan ərazini tərk etməyə məcburduq. 8 nəfər əsgər yoldaşım və ordu taborunun bəzi hərbçiləri



ilə birgə Murovdağın yamaclarından keçməklə sağ-salamat Ağcakəndə çatdıq. Ağcakənddən Goranboy Rayon Polis Şöbəsinə gəldik. Sonra bizi hərbi hissəyə yola saldılar. Hərbi hissədə Həsənrizdə baş vermiş qanlı döyüşdən və silahdaşlarımızın itkin düşməsindən xəbər tutduq".

Veteran söylədi ki, itkin düşən əsgərlərimizdən Şamil Abdullayev və Arzu Muxtarov bir neçə il sonra əsirlikdən qayıdıblar. Şamillə görüşüb, o, Eminə yaralanmış C.Əsgərovu Umudludan çıxaran, adlarını yuxarıda yazdığım əsgərlərdən A.Hacıyevi ermənilərin güllələdiklərini gördüyünü, digərlərindən məlumatı olmadığını deyib.

1992-ci il iyulun 19-da Həsənrizdə mühasirəyə düşərək öncə itkin sayılan onlarla hərbi qulluqçumuz şəhid olub. Onların nəşlərini erməni işğalçıları xəndək qazaraq torpağa gömüblər, ayrı-ayrı meyitlərin qalıqları isə ərazidə basdırılmadan qalıb.

1992-ci ilin avqust ayının ortalarında Həsənriz ikinci dəfə işğaldan azad edilib. Kənddə şəhid olmuş hərbi qulluqçularımızın nəşlərinin torpağa gömüldükləri yer tapılıb. Sentyabr ayının ilk günlərində 5477 (17072) saylı hərbi hissənin nümayəndələri, bəzi şəhidlərin ailə üzvləri, o cümlədən Qürbətin qardaşı Abbas Verdiyev Həsənrizə gedərək şəhidlərin nəşlərinin götürülməsi, daşınması və dəfn olunmasında iştirak ediblər.

Tapılan bəzi nəşlərin kimliyini müəyyənləşdirmək mümkün olmayıb. Bu nəşlərin qalıqları Bakıdakı Şəhidlər xiyabanında yerləşən qardaşlıq məzarında torpağa tapşırılıb. Orada Həsənrizdə şəhid olmuş hərbçilərin ayrı-ayrı məzarları da mövcuddur. Qürbətin nəşi tapılmadığına görə bu günədək məzarı yoxdur.

Göygöl Rayon Məhkəməsinin 24 fevral 1997-ci il tarixli qətnaməsi ilə əsgər Q.Verdiyev erməni işğalçılarına qarşı döyüşdə itkin düşmüş hesab edilib, 20 noyabr 2003-cü il tarixli digər qətnaməsi əsasında isə müharibədə ölmüş elan olunub. Ailəsinə 12 yanvar 2004-cü ildə ölüm haqqında şəhadətnamə verilib.

Azərbaycan Respublikası Prezidentinin 19 noyabr 1992-ci il tarixli müvafiq Fərmanı ilə əsgər Q.Verdiyev ölümündən sonra "Fəxri fərman"la təltif edilib.

Pənahlılar kəndində şəhidlərə həsr olunan abidə kompleksi önündə Qürbətin büstü ucaldılıb.

Şəhidin qardaşı Abbas Verdiyev Birinci Qarabağ müharibəsi zamanı ordu tərkibində döyüşlərdə iştirak edərək yaralanıb, düşməndən qisasını alıb. Müharibə veteranıdır. A.Verdiyev qeyd etdi ki, məzarsız şəhidin qardaşı olmaq, illərdir onun taleyi və nəşinin qalıqlarının tapılacağı ilə bağlı bir xəbər gözləmək çox ağırdır.

Vətən müharibəsi və lokal xarakterli antiterror tədbirləri zamanı "dəmir yumruq" zərbəsi ilə yağının məğlub edilməsi, həsrətini çəkdiyimiz torpaqlarımızda üçrəngli bayrağımızın qaldırılması şəhidin doğmaları üçün böyük qürur mənbəyi və təskinlikdir.

Xatırladım ki, Ağdərə rayonunun Həsənriz və Umudlu kəndləri uzun illərdən sonra işğaldan azad olunub. Hazırda Həsənriz sakinləri öz yurdlarına qayıdıblar. Şəhidlərin anılması məqsədilə Həsənrizdə xatirə abidəsinin yaradılması onların ailələrinin arzusudur.

Vətən uğrunda heç bir fədakarlıq unudulmur, şəhidlər qəlblərdə yaşayırlar.

Allah şəhidlərimizə rəhmət eləsin!

**Yalçın Abbasov**

4_Layout 1 12.06.2026 10:26 Page 1



## HƏRBİ HİSSƏDƏ İDEOLOJİ TƏHLÜKƏSİZLİYİN TƏMİN EDİLMƏSİ SAHƏSİNDƏ DİNİ MAARİFLƏNDİRMƏ ÜZRƏ TƏDBİR KEÇİRİLİB

Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi ilə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi arasında Daxili Qoşunların şəxsi heyətinin dini maarifləndirilməsi istiqamətində birgə işin təşkilinə dair tədbirlər planına əsasən, dini radikalizmlə mübarizənin effektivliyinin artırılması məqsədilə Daxili Qoşunların 17072 saylı hərbi hissəsində “Qurban bayramı: sosial birlik, maddi və mənəvi dəstək” mövzusunda tədbir keçirilib. Tədbirdə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Gəncə-Daşkəsən regional bölməsinin müdiri Həsən Məmmədov, bölmənin müdir müavini Elmar Fətəliyev, “İmamzadə ziyarətgah” məscidinin imamı İlham Abbasov və hərbi hissənin şəxsi heyəti iştirak edib.





Hərbi hissə komandirinin tərbiyə işləri üzrə müavini polkovnik İramin Məsimov öz giriş nitqində mövzunun əhəmiyyətini vurğulayaraq, gəncləri radikal dini cərəyanların qurbanına çevrilməkdən qorumağın, onları vətənpərvər ruhda tərbiyə etməyin zəruriliyindən danışıb. O bildirib ki, dini radikalizm və ekstremizmə qarşı mübarizədə ən effektli vasitələrdən biri də vətənpərvərlik hissinin gücləndirilməsidir. Bu baxımdan hərbi qulluqçuların maarifləndirilməsi daim diqqət mərkəzində saxlanılır. Polkovnik İ.Məsimov, həmçinin əlavə edib ki, şəxsi heyətin vətənpərvərlik hissi, mənəvi-psixoloji hazırlığı və döyüş ruhu yüksək səviyyədədir.

Daha sonra çıxış edən Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Gəncə-Daşkəsən regional bölməsinin müdiri H.Məmmədov nəzərə çatdırıb ki, müasir dünyada dini radikalizm, onun fəsadı olan ekstremizm və terrorizm nəticəsində milyonlarla insan ya öldürülüb, ya da öz doğma vətənindən didərgin düşüb. O, təəssüflə qeyd edib ki, son zamanlar dünyada dini zəmində baş verən terror aktlarının əksəriyyəti İslam dini pərdəsi altında gizlənən, lakin İslamla heç bir əlaqəsi olmayan terrorçu dəstələr tərəfindən törədilir.

Dünyada baş verən bu cür neqativ hadisələrin fonunda tolerantlıq və multikulturalizm mədəniyyətinin inkişaf etdirilməsinin vacibliyinə diqqət çəkən H.Məmmədov söyləyib ki, Azərbaycandakı dövlət-din münasibətləri modeli, multikulturalizm, tolerantlıq dünyaya bir nümunədir: “Azərbaycanda tarixən müxtəlif mədəniyyətlərin, dinlərin, millətlərin, etnik qrupların nümayəndələri qarşılıqlı hörmət, birgə yaşayış şəraitində bir ailə kimi yaşayıblar və bu ənənə günümüzdə də davam edir. Ölkəmizdə dini etiqad azadlığı tam təmin edilir və bütün dinlərin, xalqların, etnik qrupların nümayəndələri eyni hüquqlara malikdirlər”.

Azərbaycanda belə bir mühitin mövcud olmasında cəmiyyətdə formalaşmış dini dözümlülük, tolerantlıq və multikultural dəyərlərə yanaşı, düşünülmüş dövlət siyasəti də çox böyük rol oynayır. Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra dövlət tərəfindən bu sahədə yaradılan bütün zəruri şərait və dəstək dünyaya örnək sayılacaq səviyyədədir. Təbii ki, digər sahələrdə olduğu kimi, dövlət-din münasibətlərinin tənzimlənməsi sahəsində Ulu Öndər Heydər Əliyevin böyük xidmətləri olub və bu siyasət dövlət başçısı İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Regional bölmənin müdiri onu da vurğulayıb ki, ölkəmizdə hökm sürən multikulturalizm və dinlərarası tolerantlıq mühitinə qarşı əsas təhdidlərdən biri dini radikalizmdir. O, dini radikalizmin yaranma səbəblərindən biri kimi İslam dini haqqında məlumatsızlığı göstərib. Dini bilikləri düzgün təqdim olunmamasının və yanlış təsəvvürlər formalaşdırdığını söyləyib.

Dini radikalizmə qarşı mübarizədə dini maarifləndirmə tədbirlərinin əhəmiyyətindən danışan qonaq qeyd edib ki, bu gün milli-mənəvi və dini dəyərlərin qorunması istiqamətində dövlət siyasəti həyata keçirilir. Dövlət Komitəsinin tabeliyində Mənəvi Dəyərlərin Təbliği Fondunun, eyni zamanda Azərbaycan İlahiyyat İnstitutunun yaradılması bu siyasətin bariz nümunəsidir.

Sonda hərbi hissələrdə bu cür maarifləndirici tədbirlərin keçirilməsinin vacibliyi bir daha vurğulanıb, hərbi qulluqçuları maraqlandıran suallar cavablandırılıb.

**kapitan Şahin Cəfərzadə**

*NÜMUNƏVİ XİDMƏT*

## XİDMƏTİ VƏZİFƏ BORCLARININ İCRASINA DİQQƏTLİ YANAŞAN İDMANÇI HƏRBİ QULLUQÇUMUZ

Daxili Qoşunların 16076 saylı hərbi hissəsinin nümunəvi qadın hərbi qulluqçularından biri gizir Günay Ömərovadır. Hərbi hissə komandanlığı tərəfindən müsbət xarakterizə olunan hərbi qulluqçu xidmət yoldaşlarının da hörmətini qazanıb. Qarşıya qoyulan tapşırıqları keyfiyyətlə və vaxtında icra edir. Daim üzərində çalışır, özünə qarşı tələbkardır. Xidmətə ciddi münasibətlə seçilir. Nöqsanlara yol verməmək üçün bilik və bacarıqlarını artırmaq istiqamətində səylə çalışır.



Gizir G.Ömərova 1992-ci ilin yanvar ayının 14-də Bakı şəhərində anadan olub. Bakı şəhəri Nərimanov rayonunda yerləşən 258 saylı tam orta məktəbdə təhsil alıb. 2009-cu ildə məktəbi bitirib. 2010-2014-cü illərdə Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasında (hazırda Azərbaycan İdman Akademiyası) ali təhsil alıb.

2015-ci ilin iyul ayında Daxili Qoşunların sıralarına həqiqi hərbi xidmətə qəbul olunub. 25031 və 67987 saylı hərbi hissələrdə müxtəlif vəzifələrdə verilən tapşırıqları layiqincə yerinə yetirib. 2023-cü ildə 16076 saylı hərbi hissənin qərargahının kargüzarı (şəxsi heyətin uçotu üzrə) vəzifəsinə təyin olunub. Hazırda xidmətini uğurla davam etdirir. Məsuliyyəti ilə seçilən Günay müvafiq təlimatın tələblərinə uyğun olaraq, daxil olan sənədlərin qeydiyyata alınmasını və düzgün icrasına nəzarəti təmin edir. Nizami hissə üzrə əmr layihəsi, şəxsi heyət barədə müəyyən edilmiş məlumatlar vaxtlı-vaxtında hazırlanır, aidiyyəti üzrə məruzə olunur.

Xidməti vəzifə borclarının icrasına hər zaman diqqətli yanaşan hərbi qulluqçumuz, eyni zamanda ölkəmizi və xidmət etdiyi qurumu müxtəlif yerli və beynəlxalq idman yarışlarında peşəkarlıqla təmsil edir, üçrəngli bayrağımızı qürurla dalğalandırır.

Hələ uşaq yaşlarından idmana böyük həvəs göstərən Günay artıq uzun illərdir ki, karate ilə məşğul olur, daha böyük nailiyyətlər qazanmaq üçün əzmlə çalışır. “Birinci dan qara kəmər” ustası olan hərbi qulluqçumuz 2008-ci ildə Asiya çempionu, 2011-ci ildə Gürcüstanda keçirilən kinq-boksinq üzrə yarışda Zaqafqaziya çempionu, 2015-ci ildə Avropa çempionu, 2017-ci ilin may ayının 4-dən 7-dək Ukraynanın Xarkov şəhərində təşkil olunan Kempo Karate və Kobudu üzrə yarışda isə Dünya çempionu adlarına layiq görülüb.

Gizir G.Ömərovaya bundan sonra xidmətində və idman həyatında yeni-yeni uğurlar arzu edirik.

**kapitan Xədicə Hacızadə**

## MƏHARƏTLİ VƏ İNTİZAMLI SÜRÜCÜ

99713 saylı hərbi hissənin müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçularından biri də baş əsgər Mübariz Abdullayevdir. O, layiqli xidməti, nizam-intizamı ilə yoldaşlarına nümunədir.



Hərbi qulluqçumuz 1988-ci il noyabr ayının 5-də Qax rayonunun Zəyəm kəndində anadan olub. 1995-2006-cı illərdə doğma kəndində yerləşən Əmran Cabbaroğlu adına tam orta məktəbdə təhsil alıb. 2007-ci ilin yanvar ayından 2008-ci ilin iyul ayınadək Ədliyyə Nazirliyinin Bakı şəhərində yerləşən hərbi hissəsində müddətli həqiqi hərbi xidmət keçib. 2015-ci ildən müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi Daxili Qoşunların sıralarındadır.

2016-cı ildən xüsusi təyinatlı dəstənin atəş təminatı qrupunun dəzgahlı qumbaraatan yarımqrupunun sürücüsü vəzifəsində xidmətini davam etdirir. Daim üzərində çalışır, özünə qarşı tələbkardır. Hərbi xidmətə və qoyulan tapşırıqların icrasına ciddi münasibətlə seçilir. Əzmkarlığı ilə yanaşı, lazım olduqda yoldaşlarına da köməklik göstərməsi onun müsbət xüsusiyyətlərindəndir.

Baş əsgər M.Abdullayev Vətən müharibəsinin və 2023-cü ilin sentyabrında Qarabağ bölgəsində keçirilmiş antiterror əməliyyatının iştirakçısıdır. Torpaqlarımızın işğaldan azad olunması üçün aparılan 44 günlük müharibədə cəsarətlə döyüşüb. Azərbaycan Respublikası Prezidentinin və Nazirlər kabinetinin müvafiq sərəncamları, daxili işlər nazirinin əmri ilə “Füzulinin azad olunmasına görə”, “Vətən müharibəsi iştirakçısı” və “Qüsursuz xidmətə görə” 3-cü dərəcəli medallarına layiq görülüb.

**kapitan Şahin Cəfərzadə**

## HƏRBİ HİSSƏNİN İSTEHKAMÇILARI UĞURLU XİDMƏTLƏRİ İLƏ FƏRQLƏNİRLƏR

17074 saylı hərbi hissənin hərbi qulluqçuları hər zaman qarşıya qoyulan tapşırıqların yerinə yetirilməsində ayıq-sayıqlıq nümayiş etdirirlər. Hərbi hissənin döyüş hazırlığının qorunub saxlanılmasında xüsusi əhəmiyyət kəsb edən bölmələrdən biri də xüsusi təyinatlı dəstənin istehkamçı yarımqrupudur.

Baş çavuş Ləmyaz Bayramov 2026-cı ildən xüsusi təyinatlı dəstənin istehkamçı yarımqrupunun komandiri-baş istehkamçı vəzifəsindədir. Bu müddət ərzində özünü nümunəvi hərbi qulluqçu, peşəkar istehkamçı kimi nümayiş etdirməyi bacarıb. Hissə komandanlığı tərəfindən müsbət xarakterizə olunur.






Hərbi hissənin xüsusi təyinatlı dəstəsinin komandiri polkovnik-leytenant Elşad Qasımov hərbi qulluqçunun uğurlarının peşəsinin sirlərinə dərindən bələd olmasından və öz işinə tam məsuliyyətlə yanaşmasından irəli gəldiyini bildirdi.

Xidmət müddətində bir çox tapşırığı uğurla yerinə yetirən xüsusi təyinatlı dəstənin istehkamçı yarımqrupunun komandiri-baş istehkamçı baş çavuş L.Bayramov söylədi ki, yarımqrupun əsas vəzifələri təhkim olunmuş ərazidə sahibsiz qalmış şübhəli əşyaların zərərsizləşdirilməsi, partlamamış hərbi sursatların-partlayıcı maddələrin, minaların aşkar olunaraq təhlükəsiz hala gətirilməsi və ya partladılması, eləcə də dövlət əhəmiyyətli tədbirlərin keçirildiyi əraziyə daxil olan avtomobillərdə axtarış apararaq naməlum əşyaların, partlayıcı maddələrin aşkar edilməsidir.

Yarımqrup komandiri qeyd etdi ki, qarşıya qoyulan tapşırıqların keyfiyyətlə icra edilməsi məqsədilə hərbi hissə komandirinin təsdiq etdiyi müvafiq plana əsasən, şəxsi heyətlə mütəmadi olaraq məşğələlər keçirilir. Hər həftənin şənbə günü ixtisas hazırlığı üzrə nəzəri və praktiki təlimlər təşkil olunur. Bundan əlavə, yarımqrupun hərbi qulluqçuları ərazidə minaların axtarılması, tapılması, minalı ərazidən keçidlərin açılması, avtomobillərin yoxlanılması, şübhəli bilinən bağlamalara təhlükəsizlik qaydalarına əməl edilərək yaxınlaşma, səyyar vasitələr və öz cihazları işləmə qaydasının öyrədilməsi həyata keçirilir. Şəxsi heyət həmçinin Daxili Qoşunların xidməti itlərin yetişdirmə mərkəzindən kinoloq və xidməti itlərlə birlikdə ölkəmizdə keçirilən beynəlxalq əhəmiyyətli tədbirlərdə təhlükəsizlik xidmətini həyata keçirir.

Bundan əlavə, baş çavuş L.Bayramov istehkamçıların döyüş hazırlığının ayda iki dəfə hərbi hissə komandiri və xüsusi təyinatlı dəstənin komandiri tərəfindən yoxlanıldığını da sözlərinə əlavə etdi: “İstehkamçıların peşə vərdişlərinin təkmilləşdirilməsi hər zaman diqqətdə saxlanılır. Bunun üçün hərbi qulluqçularımız mütəmadi olaraq müxtəlif kurslara cəlb olunurlar. Deyə bilərəm ki, yarımqrupun şəxsi heyəti Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyinin təşkil etdiyi kurslarda müvəffəqiyyətlə iştirak edir və onlara sertifikatlar təqdim olunur. Xüsusilə qeyd etmək istəyirəm ki, cari il ərzində bu kursa cəlb olunan çavuş Elnur Kərimov təhsilini müvəffəqiyyətlə bitirərək kurs birincisi olub”.

Məlumat üçün bildirim ki, baş çavuş L.Bayramov Vətən müharibəsi və 2023-cü ilin sentyabrında Qarabağ bölgəsində aparılmış antiterror əməliyyatının iştirakçısıdır.

Yarımqrupun nümunəvi hərbi qulluqçularından baş çavuş Göycə Qurbanov, çavuşlar Loğman Abduləzizov, Ülvi Məmmədəliyev və Kəbir İslamlı öz vəzifələrinin icrasında hər zaman fərqlənirlər. Qeyd edim ki, xidmətlərini uğurla davam etdirən hərbi qulluqçularımız bundan sonra da qarşıya qoyulan tapşırıqların vaxtında və keyfiyyətlə yerinə yetirilməsinə hazırdırlar.

**kapitan Nigar Ağayeva**

## HƏRBİ XƏBƏRLƏR - YENİLİKLƏR -

### “Azərsilah” DSA-2026-da geniş məhsul portfeli ilə çıxış edib

Malayziyada keçirilən DSA-2026 sərgisində “Azərsilah” Müdafiə Sənayesi Holdinqi” QSC tərəfindən Azərbaycanın müdafiə sənayesində istehsal edilən geniş məhsul portfeli təqdim olunub.



“Poliqon” “Azərsilah”a istinadən xəbər verir ki, ekspozisiyada atıcı silahlar, yaxın məsafəli döyüş vasitələri, artilleriya silahları, kəşfiyyat vasitələri, döyüş sursatları, artilleriya döyüş sursatları və pilotsuz uçuş aparatları yer alır.

Sərgidə “Azərsilah”a məxsus 72 adda müdafiə təyinatlı məmulatlar nümayiş olunub. Eyni zamanda, “Azərsilah”ın stendində Azərbaycanın “USH Group”, “Synapline”, “Q-STP”, “6L Systems” və “RD Smart” şirkətləri də öz məhsullarını sərgiləyirlər.

Bu təqdimat “Azərsilah”ın istehsal və inkişaf imkanlarını, həmçinin müasir döyüş tələblərinə uyğun məhsullarını nümayiş etdirir.

“Azərsilah”ın DSA-2026 sərgisində iştirakı beynəlxalq bazarda mövqeyin gücləndirilməsi, yeni tərəfdaşlıqların qurulması, ixrac imkanlarının genişləndirilməsi və Azərbaycanın müdafiə sənayesi potensialının təqdim olunması baxımından böyük əhəmiyyət daşıyır.

TƏSİSÇİ:
Azərbaycan Respublikası DİN Daxili Qoşunların Baş İdarəsi.
Redaktor: Şahin Cəfərzadə

REDAKSİYANIN ÜNVANI:
AZ 1130, Bakı şəhəri, R.Hüseynov küç. 4, Daxili Qoşunların Baş İdarəsi.
Əlaqə telefonları: 590-65-26

Qəzet ayda 2 dəfə nəşr olunur. “Əsgər” qəzetinin redaksiyasında yığılıb səhifələnmiş və DİN-in mətbəəsində hazır elektron variantdan çap olunmuşdur.

Şəhadətnamə 3565
Sayı 3000